# Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın "Qazprom" Şirkəti idarə heyətinin sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Rusiya Federasiyasının "Qazprom" Şirkətinin idarə heyətinin sədri Viktor Zubkovu qəbul edib.

"Qazprom" Şirkətinin idarə heyətinin sədri Viktor Zubkov Bakıda gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.

Görüşdə Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, münasibətlərimizin bundan sonra da genişlənəcəyi əminliklə qeyd edildi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, o cümlədən energetika sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Rusiya Federasiyasının müxtəlif neft-qaz şirkətləri, eləcə də "Qazprom" arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı.

Görüşdə həmçinin Rusiya Federasiyasının "Qazprom" Şirkəti idarə heyətinin sədri Viktor Zubkovun da iştirak edəcəyi Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin keçirdiyi Qlobal Bakı Forumunun əhəmiyyətindən danışıldı, tədbirin beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmi qeyd olundu.

**AZƏRTAC**